# Kommersiya sirrinizi necə qorumalı



**ƏMİRASLAN YUSİFOV**

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil,***

Şirkətinizin gəlirinin artırılması məqsədiylə yeni tərtib etdiyiniz marketinq planı əməkdaşınız tərəfindən rəqib şirkətə sızdırılmış və bununla da potensial müştərilərinizi itirmiş olmuşsunuz. Çünki tətbiq etmək istədiyiniz yeni marketinq planı yeni müştəriləri sizin şirkətin cəlb edəcəyi yerdə, rəqib şirkət bu planı öyrənib, sizdən öncə tətbiq etmişdir. Bu hal tanış gəlir?

Bu kimi hallardan qorunmaq üçün şirkətiniz hansı qabaqlıyıcı tədbirləri görməlidir? Bu suala cavab vermək üçün gəlin aşağıdakı məlumatlarla tanış olaq.

Hər bir kommersiya məqsədli hüquqi şəxs yaradılarkən məqsədi gəlir əldə etmək olur. Gəlir əldə etmək üçün xüsusi ilə də hazırki 4-cü sənayə inqilabı dövründə yenilikçi olmaq, bir sözlə zəmanəyə ayaq uydurmaq lazım gəlir. Bu zaman gəlir əldə etmək üçün öncədən planlaşdırdığınız fəaliyyət olur. Bu fəaliyyət planı kommersiya dəyəri daşıdığından, sizin bu cür məlumatlarınız kommersiya sirri hesab edilə bilər və siz bu cür məlumatları qorumağınız, başqaları tərəfindən əldə edilə bilməməsi üçün əməli addımlar atmalısınız. Azərbaycan Respublikasında kommersiya sirri ilə bağlı bir sıra hüquqi aktlar mövcuddur. Bunlardan ən əsası "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının qanunudur. Həmçinin bu qanunun tələblərinin pozulmasıyla bağlı həm mülki, həm inzibati həm də cinayət məsuliyyəti yaranması ilə bağlı müvafiq qanunvericlik aktlarında maddələr müəyyən edilmişdir. Tövsiyyə olunur ki, bu hüquqi aktlara əsaslanaraq, kommersiya sirri sayıla biləcək məlumatlarınızın qorunması üçün şirkətinizdə "kommersiya sirrinin qorunması rejimi" tətbiq edəsiniz. Bu rejimi tətbiq etmək aşağıdakı addımların atılması zəruridir:

1. Kommersiya sirri rejimi barədə əsasnamə və ya siyasət (prosedur, qayda, təlimat vəs. adlandırıla bilər) sənədi tərtib etmək;
2. Kommersiya sirri sayıla biləcək məlumatların siyahısını tərtib etmək. Bu siyahıdakı məlumatlar, "Kommersiya sirri haqqında" qanunun 3-cü maddəsində qeyd edilən meyarlara uyğun olmalıdır. Meyarlar bunlardır: (i) kommersiya dəyərinə malik olması (başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək ba xımından əhəmiyyətlidir, digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə bilər və s.); (ii) məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi; (iii) bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması;
3. Həmin siyahını şirkətin əməkdaşları ilə tanış edib, tanış olması barədə qeyd aparmaq;
4. Kommersiya sirri qorunması barədə şirkət əməkdaşları ilə bağlanmış əmək müqaviləsində müvafiq şərtləri əlavə etmək və ya ayrıca razılaşma imzalamaq; (Əmək Məcəlləsinin 10-cu maddəsinə əsasən, işçinin əsas vəzifələrində biri işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamalıdır)
5. Əgər şirkətin kollektiv müqaviləsi varsa və kommersiya sirrinin yayılmasının qar şısını almaq məqsədiylə əlavə olaraq cərimə müəyyən etmək etmək istəyirsə, bu barədə kollektiv müqaviləyə müvafiq şərt əlavə edilə bilər. Əlavə olaraq, bildirək ki, kommersiya sirrinin pozulması kollektiv müqavilədə cərimə şərti olmasa belə, pozuntu nəticəsində şirkətə dəymiş ziyanı Əmək Məcəlləsinin 199.1.e maddəsinə əsasən işçidən tələb edə bilər. Qeyd etdyimiz cərimə kommersiya sirri rejiminin möhkəmləndirilməsinə xidmət edir.
6. Öz əməkdaşlarınızdan əlavə digər şirkət tərəfindən də əməkdaşlığınızdan yaranan məlumatların qorunması üçün həmin şirkətlə əməkdaşlığınızın rəsmiləşdiyi müqaviləyə müvafiq şərtlər əlavə edə və ya ayrıca məlumatların qorunmasına dair müqavilə bağlaya bilərsiniz.

Yuxarıda yazdıqlarımız kommersiya sirrinin qorunması üçün qabaqlayıcı tədbirlərdir. Hər bir hüquqi pozuntunun qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti olur, əsas məsələ həmin pozuntunun baş verməməsi üçün sizin gördüyünüz qabaqlayıcı tədbirlərdir.

Necə deyərlər, "şərti şumda kəsin ki, xırmanda yabalayaşmayasınız".